**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2025-ci 16 iyul il tarixində təşkil edilmiş "Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması" barədə "Dəyirmi masa"nın iclas PROTOKOLU**

**№04**

**Bakı şəhəri** **16 iyul 2025-ci il**

**Sədrlik edirdi:** Qəşəm Bayramov – Auditorlar Palatası Aparatının və "Dəyirmi masa"nın rəhbəri.

İştirak edirdilər: Fatma Kamalova – Aparat rəhbərinin müavini, "Dəyirmi masa"nın katibi;

Nəcəf Talıbov – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Auditorlar Palatasının Şurası yanında Elm, innovasiyaların tətbiqi və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri;

Elnur İbrahimov - Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi;

Anar Bayramov – "İnvest Finance" MMC-nin direktor-auditoru;

Eldar Təhməzov – "Azəruçot" MMC-nin direktor-auditoru;

Elzadə Süleymanova – "Azel - Audit" MMC-nin direktoru;

İlham Süleyman – Sərbəst auditor;

Nazim Axundov – Sərbəst auditor;

Rüfət Əliyev - "A Audit and Consulting" MMC-nin direktor-auditoru

Yasin Şirinov - "Azəri Audit Servis" MMC-nin auditoru;

Zamin Hüseynov –"ABAK-Az Crovve LTD"-nin direktor-auditoru;

Vidadi Talıbov – Sərbəst auditor;

Elxan İsmayılov - "ELVİ Audit" MMC-nin direktor-auditoru;

Vasif Cavadov – Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi;

Nigar İsmayılova - Auditin təşkili və təhlili şöbəsinin müdiri;

Elxan Qəmbərov – Dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə iş şöbəsi;

Maral Osmanova - Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəis müavini;
Birgül Məmmədzadə - Maliyyə və texniki təminat idarəsinin mühasibi;
Elminə İsayeva – Kadr hazırlığı idarəsinin rəis müavini.

**İştirak etməyənlər:** Anar Bayramov – “Bizcon Audit” MMC-nin direktor-auditoru;
Azər Əliyev – Sərbəst auditor;
Rüfət Zeynalov - “Abacus Audit and Consulting” MMC-nin direktor-auditoru;
Elçin Əliyev – “BKR Consulting” MMC-nin direktor-auditoru;
Faiq Avşar–“RF Tax consulting 2015” MMC-nin direktor-auditoru;
Səftər Vəlizadə - “SR Audit Solutions” MMC-nin direktor-auditoru
Elnur Kazımov - “Azfinance and consulting” MMC-nin direktor-auditoru;
Ənvər Aslanov – Sərbəst auditor;
Namiq Abbaslı - Auditorlar Palatasının Şurası yanında Beynəlxalq Audit Standartları üzrə komitənin sədri, “ANR Audit” MMC-nin direktor-auditoru;
Nəsibə Muradxanova - “KPMG Audit Azərbaycan” MMC-nin Audit departamentinin rəhbəri, auditor;
Roman Hüseynov - Naxçıvan Muxtar Respublikası Auditor təşkilatının direktor-auditoru
Tural Ağayev - “PraysVoterhauskupers Audit Azərbaycan” MMC-nin baş meneceri;
Elşad Abdurahmanlı – “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialının audit üzrə meneceri;
Elxan Əliyev - “Deloitte &Touche” MMAC-nin Audit departamentinin direktoru.

**Gündəlik: “Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması” məsələnin müzakirəsi.**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş Planının 10.2.17-ci “Auditdə dələduzluq hallarının aşkarlanması  və qarşısının alınması” mövzusunda “Dəyirmi masa”nın keçirilməsi bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2025-ci ilin 16 iyul tarixində nəzərdə tutulan həmin mövzuda “Dəyirmi masa” təşkil edilib.

Aparatın və “Dəyirmi masa”nın rəhbəri Qəşəm Bayramov “Dəyirmi masa”nın gündəliyinə çıxarılan məsələnin əhəmiyyətindən bəhs edərək bildirib ki, auditor xidmətinin sifarişçilərinə yüksək səviyyədə auditor xidmətləri göstərmək üçün auditorlar Azərbaycan Respublikasının qanunvericilik aktlarının, Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), Maliyyə Hesabatlarının, Beynəlxalq Standartlarının və Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə düzgün riayət etməlidirlər.

Auditdə dələduzluq hallarının aşkarlanması  və qarşısının alınması məqsədilə auditorlar 240 saylı “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti” Beynəlxalq Audit Standartının tələblərinə riayət edilməsinə xüsusi diqqət yetirməlidir.

Bu beynəlxalq audit standartı (BAS) maliyyə hesabatlarının auditi zamanı ortaya çıxan dələduzluq faktları ilə bağlı auditorun məsuliyyətindən bəhs edir.

“Maliyyə hesabatlarındakı təhriflər ya dələduzluq, ya da səhv üzündən baş verə bilər. Dələduzluq və səhvi bir-birindən ayıran amil maliyyə hesabatlarında təhrifin baş verməsi ilə nəticələnən əsas hərəkətə qəsdən və ya bilməyərəkdən yol verilməsidir.

Dələduzluq geniş hüquqi konsepsiya olmasına baxmayaraq, BAS-ların məqsədlərindən irəli gələrək, auditor maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb olan dələduzluqla bağlı narahatlığını bildirir. Qəsdən təhriflərin iki növü auditora aiddir — yanlış maliyyə hesabatından irəli gələn təhriflər və aktivlərin qeyri-qanuni mənimsənilməsi üzündən baş verən təhriflər.

Dələduzluğun qarşısının alınması və aşkar edilməsinə görə birbaşa məsuliyyət həm müəssisənin idarəetməyə məsul şəxslərinin, həm də rəhbərliyin üzərinə düşür.

BAS-lara uyğun audit aparan auditor tam kimi götürülmüş maliyyə hesabatlarının istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olması barədə ağlabatan əminlik əldə etməyə görə məsuliyyət daşıyır.

BAS-lara uyğun audit aparan auditor tam kimi götürülmüş maliyyə hesabatlarının istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olması barədə Ağlabatan əminlik əldə edərkən, auditor rəhbərliyin nəzarət vasitələrinə məhəl qoymamaq potensialını nəzərə alaraq və səhvi aşkar etmək üçün sınanmış audit

prosedurlarının dələduzluğu aşkar etmək üçün etibarlı olmaya bilməsi faktını qəbul edərək, audit boyu peşəkar inamsızlıq nümayiş etdirməlidir.

Auditorun məqsədləri aşağıdakılardır:

(a) Dələduzluq nəticəsində maliyyə hesabatlarında yol verilmiş əhəmiyyətli təhriflər riskini aşkar etmək və qiymətləndirmək;

(b) Dələduzluq nəticəsində yol verilmiş qiymətləndirilmə əhəmiyyətli təhriflər riski ilə bağlı yetərli münasib audit sübutu əldə etmək üçün uyğun cavab tədbirləri hazırlamaq və həyata keçirmək, habelə;

(c) Audit zamanı müəyyən olunmuş və ya ehtimal olunan dələduzluğa qarşı lazımi şəkildə cavab vermək.

Q.Bayramov çıxış etmək üçün sözü Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbova verdi. N.Talıbov çıxış edərək bildirib ki, 240 saylı Beynəlxalq Audit Standartı auditorun maliyyə hesabatlarının auditində dələduzluq hallarının mövcud ola biləcəyini qəbul etməsi və buna uyğun hərəkət etməsi öhdəliyini müəyyən edir. Standartın əsas məqsədi auditorun dələduzluq nəticəsində səhv təqdimat risklərini nəzərə alaraq auditin planlaşdırılması və icrası, dələduzluq risklərinin qiymətləndirilməsi, müvafiq audit prosedurlarının tətbiqi və auditorun etik və peşəkar şübhəçilik prinsipinə əsaslanaraq obyektiv və diqqətli davranmasıdır.

Standart Dələduzluğu iki əsas kateqoriyaya ayırır:

1. Aktivlərin mənimsənilməsi (misappropriation of assets) – Məsələn: işçilər tərəfindən pul və ya əmlakın oğurlanması.

2. Maliyyə hesabatlarının saxtalaşdırılması (fraudulent financial reporting) – Məsələn gəlirlərin şişirdilməsi, xərclərin gizlədilməsi.

Auditor riskləri qiymətləndirərkən aşağıdakı addımları həyata keçirir:

1. Rəhbərliklə sorğu – Dələduzluq riskləri barədə rəhbərlikdən və daxili audit bölməsindən sorğu alınır.

2. Analitik prosedurlar – Maliyyə göstəricilərində anormallıqlar axtarılır.

3. Daxili nəzarət sistemlərinin dəyərləndirilməsi – Dələduzluqların qarşısını almaq üçün mövcud nəzarətlərin effektivliyi qiymətləndirilir.

Dələduzluq riskləri müəyyən edildikdə, auditor aşağıdakı tədbirləri görməlidir:

- Əlavə sübutlar toplamaq üçün genişləndirilmiş testlər aparmaq;
- Jurnal yazılarına xüsusi diqqət yetirmək (çünki saxtalaşdırmalar tez-tez burada aparılır);
- Gəlir tanınması prosesini yoxlamaq, çünki gəlirin şişirdilməsi ən çox rast gəlinən dələduzluq növüdür;

- Müəyyən şübhəli müqavilələri və qeyri-adi əməliyyatları təhlil etmək.

Auditor sübutların əlaqəli, etibarlı və obyektiv olmasına diqqət yetirir. Hər hansı dələduzluq şübhəsi yaranarsa, auditor məsələni rəhbərliyə və lazımi hallarda idarəetmə orqanlarına bildirir.

Əgər auditor dələduzluq şübhəsi aşkar edərsə, aşağıdakı addımlar atılmalıdır:

Sənədləşdirmə – Auditor bütün qiymətləndirmələri və sübutları sənədləşdirməlidir.

Rəhbərliyə və idarəetmə orqanlarına məlumat – Əgər rəhbərlik dələduzluqda iştirak edirsə, bu zaman bu məlumat daha yuxarı səviyyəyə ötürülür.

Hüquqi və etik öhdəliklər – Auditor bəzən qanunla müəyyən edilmiş hallarda müvafiq orqanlara məlumat verməyə borcludur.

Audit hesabatına təsiri – Əgər dələduzluq nəticəsində maliyyə hesabatlarında mühüm səhv mövcuddursa və rəhbərlik düzəliş etmirsə, auditor mənfi rəy və ya rəydən imtina verə bilər.

Daha sonra Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması üzrə "A Audit and Consulting" MMC-nin direktor-auditoru Rüfət Əliyev, "Azəri Audit Servis" MMC-nin auditoru Yasin Şirinov, Sərbəst auditor Nazim Axundov və "ABAK-Az Crovve LTD"-nin direktor-auditoru Zamin Hüseynov "Dəyirmi masa"da çıxış edərək bir sıra təkliflər veriblər.

"A Audit and Consulting" MMC-nin direktor-auditoru Rüfət Əliyev bildirib ki, audit ilə əlaqəli xidmətlərin maliyyə cinayətləri üzrə işlərə keyfiyyətə nəzarət üçün xüsusi komissiya yaradılsın. Eyni iş baxımından 2 auditorun əks mövqe tərəfləri olaraq toqquşması olarsa, haqlı tərəfin Palata tərəfindən dəstəklənməlidir. Audit sübutları olmadan xüsusi sifariş ilə rəy verən auditorlara qarşı ciddi inzibati cəza tədbirlərinin görülməsini təmin etmək lazımdır. Sifariş ilə rəy verən auditorların hərəkət və hərəkətsizliyi dələduzluq halı kimi qiymətləndirilsin və cavab tədbirləri təşkil edsilsin.

"Azəri Audit Servis" MMC-nin auditoru Yasin Şirinov bildirdi ki, dələduzluqla bağlı hazırda BAS-larda olan tələblər qane edicidir, çünki bu gün mövcud olan çatışmazlıqlar auditə tələbatın zəifləməsindən irəli gəlir, səsləndirilən fikkirlər də bunu təsdiq edir. Baxış dəyişdirilməlidir, xüsusən də Palata tərəfindən auditor xidməti bazarında keyfiyyətə nəzarətin baxış bucağı – yanaşma siyasəti dəyişdirilməlidir.

Sərbəst auditor Nazim Axundov təklif etdi ki, Palata sədrinin 2025-ci il 10 yanvar tarixli 10-1/3-3-1/2025 nömrəli sərəncamı ilə təsdiq edilmiş səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edəcək auditorların siyahısına yenidən baxılsın və dəyişdirilsin.

“ABAK-Az Crovve LTD”-nin direktor-auditoru Zamin Hüseynov bildirdi ki, auditin keyfiyyətinə kənar nəzarətin monitorinqi zamanı və ya ayrıca araşdırma aparılması ilə müəyyən edilsin ki, düzgün auditor rəyi verilməsi sübut olunarsa onlar dələduzluq halı kimi qiymətləndirilsin. Dələduzluğun aşkarlanması və qarşısının alınması üçün ayrıca bir komissiya yaradılsın və komissiya üzvləri də sertifikatlaşdırılsın.

“Dəyirmi masa”da 14 nəfər “Dəyirmi masa”nın üzvləri və 6 nəfər Palatanın struktur bölmələrinin əməkdaşları iştirak edib.

“Dəyirmi masa”nın üzvləri tərəfindən “Dələduzluq hallarının aşkarlanması və qarşısının alınması” məsələsi müzakirə edilərək Qərara alındı:

1. Auditor xidmətinin sifarişçilərinə yüksək səviyyədə auditor xidmətləri göstərmək üçün auditorlar Azərbaycan Respublikasının qanunvericilik aktlarının, Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə düzgün riayət etsinlər.
2. Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması məqsədilə auditorlar 240 saylı “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti” Beynəlxalq Audit Standartının tələblərinə riayət edilməsinə xüsusi diqqət yetirsinlər.
3. Audit ilə əlaqəli xidmətlərin maliyyə cinayətləri üzrə işlərə keyfiyyətə nəzarət üçün xüsusi komissiya yaradılsın.
4. Eyni iş baxımından 2 auditorun əks mövqe tərəfləri olaraq toqquşması olarsa, haqlı tərəf Palata tərəfindən dəstəklənsin.
5. Audit sübutları olmadan xüsusi sifariş ilə rəy verən auditorlara qarşı ciddi inzibati cəza tədbirləri görülsün
6. Sifariş ilə rəy verən auditorların hərəkət və hərəkətsizliyi dələduzluq halı kimi qiymətləndirilsin və cavab tədbirləri təşkil edilsin.
7. Palata sədrinin 2025-ci il 10 yanvar tarixli 10-1/3-3-1/2025 nömrəli sərəncamı ilə təsdiq edilmiş səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edəcək auditorların siyahısına yenidən baxılsın və dəyişdirilsin.
8. Auditin keyfiyyətinə kənar nəzarətin monitorinqi zamanı və ya ayrıca araşdırma aparılması ilə müəyyən edilsin ki, düzgün olmayan auditor rəyi verilməsi nəticəsində neqativ halların baş verməsi sübut olunarsa onlar dələduzluq halı kimi qiymətləndirilsin.

9. Dələduzluğun aşkarlanması və qarşısının alınması üçün ayrıca xüsusi komissiya yaradılsın və komissiya üzvləri də sertifikatlaşdırılsın.
10. Auditin keyfiyyətinə kənar nəzarətin səviyyəsi yüksəldilsin.

| | |
|---|---|
| **İclasın sədri** | **Qəşəm Bayramov** |
| **İclasın katibi** | **Fatma Kamalova** |